# Müsəlman qardaşlarını deyib gələn "Molla Nəsrəddin"in tarixi missiyası

## Cəlil Məmmədquluzadənin "Xatirələr"ində zəmanənin, təbiətin özünün yaratdığını dediyi "Molla Nəsrəddin" jurnalının ərsəyə gəlməsindən 113 il ötür



XX əsrin əvvəllərində Azərbaycan mətbuat tarixində yeni bir dövr başlayır. Bu dövrdə müxtəlif qəzet və jurnallar nəşr olunurdu. Bunların nəşr edildiyi dövrdə "Molla Nəsrəddin" jurnalı meydana gəldi. Bu gəliş mətbuat tariximizdə bir məktəb rolu oynadı, bir hadisə oldu. Azərbaycan mətbuatı tarixində ilk satirik jurnal olan "Molla Nəsrəddin" 1906-cı il aprelin 7-də Tiflisdə "Qeyrət" mətbəsində nəşrə başlayıb. "Molla Nəsrəddin" jurnalının redaktoru böyük ədib, görkəmli satirik Cəlil Məmmədquluzadə idi. "Molla Nəsrəddin" əsrin əvvəllərində Rusiya və Azərbaycanda mövcud olan mürəkkəb ictimai-siyasi şəraitdə meydana gəlmişdi. Jurnal müəyyən fasilələrlə 25 il çap olunub. "Molla Nəsrəddin" 1906-1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda nəşr edilib. Jurnalın ümumilikdə 748 nömrəsi işıq üzü görüb ki, onun da 340-ı Tiflisdə, 8-i Təbrizdə, 400-ü Bakıda nəşr olunub. "Molla Nəsrəddin" jurnalının ilk nömrələri ancaq Cəlil Məmmədquluzadə ilə Ömər Faiq Nemanzadənin birgə səyləri ilə çap olunurdu. Jurnalın "Molla Nəsrəddin" adlandırılması da maraqlıdır. Molla Nəsrəddin şifahi xalq ədəbiyyatının qəhrəmanıdır və həmişə də zülmə, nadanlığa, haqsızlığa gülüb, güldürüb düşündürüb. Mirzə Cəlil də Molla Nəsrəddinin dili ilə xalqın dediyini bəyan edir, onu güldürür, düşündürür, həm də yol göstərir.

"Molla Nəsrəddin" jurnalı ilk nömrəsindən Azərbaycan dilinin varlığı və təmizliyi uğrunda mübarizə meydanına atıldı. Jurnalın sonrakı nömrələrində hətta bütün fəaliyyət dövründə dil haqqında müxtəlif janrlarda saysız-hesabsız əsərlər çap olunub. Qadınların maariflənməsi, elmli, təhsilli olmaları kimi məsələlər də "Molla Nəsrəddin" səhifələrində öz əksini tapıb. "Molla Nəsrəddin" həyatdakı bütün nöqsanları aradan qaldırmaq üçün düşündürən, iş görməyə çağıran bir jurnal idi. Bu jurnalın yaradıcısı Cəlil Məmmədquluzadə isə jurnalın məsləkinə, yəni həmişə doğru yazmaq ideyasına sadiq qalırdı. "Molla Nəsrəddin"ə qarşı hücumlar gücləndikcə Mirzə Cəlil tutduğu yolun doğruluğuna daha çox inanırdı. Lakin nə düşmənlərin hədə-qorxusu, nə də dostlarının narahatlığı Mirzə Cəlili qorxuya sala, onu tutduğu yoldan döndərə bilməyib.

"Molla Nəsrəddin" tək bir müəllifin əsəri deyil, bir neçə qələm sahiblərinin əsəri idi. "Molla Nəsrəddin" aləmində ikinci qüdrətli qələm ustası poeziyamızda inqilabi satiranın banisi M.Ə.Sabir idi. Sabir yaradıcılığının ən parlaq dövrünü ancaq "Molla Nəsrəddin" jurnalının nəşri ilə bağlayır. Sabir öz oxucularını düşündürən şeirlər yazırdı. "Molla Nəsrəddin"in əsas qayəsi də bu idi. Ən çox "Hop-hop", "Ağlar güləyən", "Cingöz bəy" imzaları ilə çap olunan Sabir "Molla Nəsrəddin"də bir çox başqa gizli imzalarla çıxış etmişdir. Bundan əlavə, "Molla Nəsrəddin" o dövrdə Azərbaycan xalqının bir sıra mütərəqqi qüvvələrini, demokratik düşüncəli insanlarını öz ətrafına cəm edə bilmişdi. Cəlil Məmmədquluzadə kimi açıq fikirli ziyalı bu jurnalın başında dayanaraq, azadlıq dostları Ömər Faiq Nemanzadə, Əbdürrəhim bəy Haqverdiyev, Əli Nəzmi, Əliqulu Qəmküsar, Məmməd Səid Ordubadi, Mirzəli Möcüz Şəbüstəri və digər şair, yazıçı və jurnalistləri ətrafına toplamışdı. Böyük bir ziyalı kütləsinin çalışdığı "Molla Nəsrəddin" baltanı kökündən vuran, əski ənənələrdən bizi gülə-gülə ayıran, dəyərli, sağlam ənənələr əsasında yenilikləri formalaşdıran jurnala çevrilmişdi. Elə bunun nəticəsi idi ki, cəmi 4 nömrədən sonra bu jurnal haqqında müxtəlif ədəbi-tənqidi, elmi yazılar dərc olunmağa başlamışdı. İlk dəfə olaraq Əli bəy Hüseynzadə öz yazılarında qeyd edirdi ki, "Molla Nəsrəddin" həyatımızın gerçək aynasıdır və bu jurnal bizə həqiqətləri, göz yaşları içərisində gülüş nümayiş etdirir. Bu fikir "Molla Nəsrəddin"in fəaliyyətinə verilən yüksək qiymətdir və onun xalqımızın həyatında oynadığı rolu aydın təsvir edir.

"Molla Nəsrəddin"in yaradıcı heyətində realist rəssamların da çox böyük mövqeyi var idi. Jurnalın dərin məzmunlu karikaturalarını Oskar Şmerlinq, İozef Rotter və Əzim Əzimzadə kimi dahi rəssamlar çəkirdi, Təbriz nömrələrinin rəssamı isə Əli Behzad idi. Bundan başqa, "Molla Nəsrəddin"də atalar sözləri, lətifələr, poçt qutusu, satirik elanlar, tərcümeyi-hallar, lüğətlər, bir para hikmətli sözlər, tapmacalar, sual-cavab, etiraf və onlarla formadan istifadə edilib.

25 il ərzində cəmiyyətin eybəcərliklərini, qüsurlarını çəkinmədən, qorxmadan açıb göstərən, müsəlman qardaşlarını bir növ cahillik yuxusundan oyatmağa çalışan "Molla Nəsrəddin" dünənin və aktuallığını itirmədiyinə görə, həm də bu günün jurnalı sayıla bilər.

**Sevinc Azadi,**
***"İki sahil"***

İki sahil.- 2019.- 6 aprel.- S.14